Azərbaycan ordusu

8

23 noyabr 2019-cu il

**İlham Qazaxlı**

# Vətən

Qucağında göz açdığım,
Məskənim, yurdumdu Vətən...
Gözlərimdə həyat eşqi,
Sinəmdə odumdu Vətən.

Saf eşqim, saf məhəbbətim,
Ülviyyətim, səadətim,
Məfkurəm, ülvi niyyətim,
Müqəddəs andımdı Vətən.

Damarımda axan qanım,
Təmiz məslək, pak vicdanım,
Hissim, duyğum, ruhum, canım,
Qolum-qanadımdı Vətən.

Heysiyyətim, ləyaqətim,
Ucalığım, şan-şöhrətim,
Şərəfim, arım, qeyrətim,
Qürurum, adımdı Vətən.

Məqsəd, arzu diləyimdir,
Vuran nəbzim, ürəyimdir,
Ruzim-duzum, çörəyimdir,
Ləzzətim, dadımdı Vətən.

Odum, közüm, atəşimdir,
Əbədiyyət Günəşimdir,
Zirvəyə yüksəlişimdir,
Kamım, muradımdı Vətən.